**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN RESPUBLİKASININ KƏND TƏSƏRRÜFATINDA DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

| | |
|---|---|
| İxtisas: | 5312.01- Sahə iqtisadiyatı |
| Elm sahəsi: | İqtisad elmləri |
| İddiaçı: | **Pərviz Fuad oğlu Əliyev** |

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın
**AVTOREFERATI**

**Bakı - 2025**

Dissertasiya işi Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Aqrar Tədqiqatlar Mərkəzində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | iqtisad üzrə elmlər doktoru, dosent<br>**Akif Həmzə oğlu Vəliyev** |
| Rəsmi opponentlər: | iqtisad elmləri doktoru, professor<br>**Fərhad Pənah oğlu Rəhmanov** |
| | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Famil Vəli oğlu Rüstəmov** |
| | iqtisad üzrə fəlsəfə doktoru<br>**Azər Maarif oğlu Pənahov** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurası

| | | |
|---|---|---|
| Dissertasiya şurasının sədri: | imza | iqtisad elmləri doktoru, professor<br>**Yaşar Atakişi oğlu Kəlbiyev** |
| Dissertasiya şurasının elmi katibi: | imza | iqtisad üzrə fəlsəfə doktoru, dosent<br>**Suqra İnqilab qızı Hümbətova** |
| Elmi seminarın sədri: | imza | iqtisad elmləri doktoru, dosent<br>**Ramil Zahid oğlu Hüseyn** |

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi * Azərbaycan Dövlət İqtisad Universiteti publik hüquqi şəxs * UNEC * ÜMUMİ ŞÖBƏ

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Tədqiqat mövzusunun aktuallığı ölkənin kənd təsərrüfatı sektorunun xüsusiyyətləri və bu sektorun milli iqtisadiyyatın dayanıqlı inkişafında oynadığı strateji rolla bağlı aşağıdakı amillərlə müəyyən olunur:

Birincisi, ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından iqtisadiyyatın ən önəmli sektoru kimi çıxış edən kənd təsərrüfatının inkişafı hər bir dövlətin diqqət mərkəzindədir. Kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının da mühüm tərkib hissəsidir. Sektor əhalinin böyük bir hissəsinin məşğulluğunu təmin etməklə yanaşı, ölkənin ərzaq təhlükəsizliyinə də önəmli töhfə verir. Bu baxımdan, hazırkı dövr üçün ölkə əhalisinin zəruri və təhlükəsiz qida məhsulları ilə təmin edilməsi və bu məhsullarla özünütəminetmə səviyyəsinin yüksəldilməsi məsələləri dövlət tənzimlənməsinin xüsusilə aktual problemləri sırasındadır.

İkincisi, son dövrlər xüsusilə kəskinləşən iqlim dəyişiklikləri kənd təsərrüfatı sektoruna əhəmiyyətli dərəcədə təsir göstərir. Bu isə kənd təsərrüfatının təbii fəlakətlərə və əlverişsiz hava şəraitinə dayanıqlılığının təmin edilməsinə yönəlmiş dövlət tənzimlənməsinə yeni yanaşmaların işlənib hazırlanmasını tələb edir. Bu baxımdan, hazırkı dövr üçün quraqlıq, daşqın və digər təbii fəlakətlər zamanı fermerlərin dəstəklənməsi, eləcə də ekoloji cəhətdən təmiz texnologiyalardan və dayanıqlı kənd təsərrüfatı təcrübələrindən istifadənin təşviq edilməsi kimi məsələlər dövlət tənzimlənməsinin aktual problemləri kimi nəzərdən keçirilir.

Üçüncüsü, Azərbaycanın müxtəlif beynəlxalq və regional təşkilatlara daxil olması və digər ölkələrlə iqtisadi əlaqələrinin inkişafı yerli kənd təsərrüfatı istehsalının beynəlxalq məhsul keyfiyyəti və təhlükəsizliyi standartlarına uyğunlaşdırılmasını tələb edir. Bu kontekstdə aktual tendensiyalardan biri kimi kənd təsərrüfatı məhsullarının ixrac potensialının artırılması və Azərbaycanın dünya bazarlarında mövqeyinin möhkəmləndirilməsi ilə bağlı dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi hökumətin gündəliyində duran əsas məsələlərdəndir.

Nəhayət, getdikcə kəskinləşən rəqabət mühiti kənd təsərrüfatından rəqəmsallaşma və müasir texnologiyaların tətbiqi də daxil olmaqla innovativ yanaşmaların mənimsənilməsini tələb edir. Bu baxımdan, hazırkı dövrdə fermerlər tərəfindən rəqəmsal həllərin və innovasiyaların

tətbiqi üçün əlverişli şəraitin yaradılması kənd təsərrüfatı sahəsində dövlət tənzimlənməsinin ən aktual məsələləri arasındadır.

Beləliklə, müəyyən etdik ki, hazırkı dövr üçün Azərbaycanda kənd təsərrüfatında dövlət tənzimlənməsinin təkmilləşdirilməsi ölkənin dayanıqlı sosial-iqtisadi inkişafı baxımından mühüm amil kimi çıxış edir. Bu isə tədqiqat mövzusunun aktuallığını şərtləndirir.

"Azərbaycan Respublikasının kənd təsərrüfatında dövlət tənzimlənməsinin təkmilləşdirilməsi" mövzusunun işlənməsinin hazırkı səviyyəsi alim və mütəxəssislərin kənd təsərrüfatı sektoru və onun həm milli, həm də beynəlxalq səviyyədə tənzimlənməsi məsələlərinə göstərdikləri marağı əks etdirir. Bir çox xarici alim və iqtisadçıların əsərlərində kənd təsərrüfatının dövlət tənzimlənməsinin müxtəlif aspektlərinə, o cümlədən ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd infrastrukturunun inkişafı, bu sahəyə dövlət dəstəyinin təkmilləşdirilməsi, innovasiyaların stimullaşdırılması və dayanıqlı kənd təsərrüfatı kimi məsələlərə xüsusi diqqət ayrılmışdır. Bu istiqamətdə elmi araşdırmalara xüsusilə mühüm töhfələr vermiş alimlərdən J.H.Devis, M.E.Porter, J.K.Galbraith, J.M.Keynes, L.R.Klein, A.Marshall, A.C.Piqou, J.A.Şumpeter, P.A.Samuelson, R.M.Solou, M.Friedman, P.M.Lukiçev, V.V.Sidorenko və başqalarının adlarını çəkmək olar.

Azərbaycanda kənd təsərrüfatının dövlət tənzimlənməsi üzrə elmi tədqiqatlar əsasən kənd təsərrüfatında məhsuldarlığın artırılması, dayanıqlı inkişaf və dəyişən iqtisadi şəraitə uyğunlaşma məsələlərinə yönəlmişdir. Yerli iqtisadçı alimlər tərəfindən aparılmış tədqiqatlarda təsərrüfatların dəstəklənməsi və kənd yerlərinin inkişafına yönəlmiş dövlət proqramlarının həyata keçirilməsinə və tənzimlənmənin hüquqi aspektlərinin təkmilləşdirilməsinə xüsusi diqqət yetirilir. Bu məsələlərin tədqiqinə böyük töhfəsi olan alimlərimizdən Z.Ə.Səmədzadə, N.Ə.Cavadov, H.A.Xəlilov, F.P.Rəhmanov, A.İ.Məmmədov, A.T.Əhmədov, A.H.Vəliyev, H.B.Allahverdiyev, İ.H.Alıyev, V.H.Abbasov, İ.Ş.Qarayev, S.V.Salahov, V.Ə.Qasımlı, R.Z.Hüseyn, Y.H.Həsənli və başqalarını qeyd etmək olar.

Tədqiqat mövzusu üzrə aparılan çoxsaylı araşdırmalara baxmayaraq, Azərbaycanda kənd təsərrüfatının dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsi baxımından yeni yanaşmalara hələ də ehtiyac vardır. Bu baxımdan, kənd təsərrüfatı sahəsində inkişafa ən böyük töhfə verə

biləcək prioritetlərin müəyyən edilməsi, beynəlxalq müqayisəliliyin təmin olunması və prosesə dayanıqlı inkişaf prinsiplərinin inteqrasiya edilməsi kimi məsələlərin təhlili aktuallıq təşkil edir. Lakin həm yerli, həm də qlobal səviyyədə tədqiqat mövzusuna ciddi marağın mövcud olmasına baxmayaraq, yeni iqtisadi və ekoloji çağırışlar şəraitində kənd təsərrüfatının dövlət tənzimlənməsinin müasir mexanizm və strategiyalarının öyrənilməsində müəyyən boşluqlar mövcuddur ki, bu da tədqiqat mövzusunun daha dərindən nəzərdən keçirilməsini zəruriləşdirir.

**Tədqiqatın obyekti** Azərbaycan Respublikasının kənd təsərrüfatının dövlət tənzimlənməsi sistemidir. **Tədqiqatın predmeti** isə Azərbaycanda kənd təsərrüfatında dövlət tənzimlənməsinin təkmilləşdirilməsi prosesləri və alətlərini əhatə edir.

**Tədqiqat işinin məqsədi** Azərbaycanda kənd təsərrüfatı sektoru üzrə dövlət tənzimlənməsinin effektivliyinin qiymətləndirilməsi əsasında bu tənzimlənmənin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsindən ibarətdir. Bu məqsədə nail olmaq üçün **əsas vəzifələr** aşağıdakılardan ibarətdir:

- kənd təsərrüfatı sektoru üzrə dövlət tənzimlənməsi ilə bağlı mövcud nəzəri yanaşmaları təhlil etmək, bu sahədə ayrı-ayrı ölkələrin təcrübələri və beynəlxalq çağırışları nəzərdən keçirmək;
- kənd təsərrüfatı sektorunun dövlət tənzimlənməsinin effektivliyinin qiymətləndirilməsi üzrə mövcud metodologiyaları araşdırmaq;
- Azərbaycanda kənd təsərrüfatının dövlət tənzimlənməsinin tarixi təkamülünü nəzərdən keçirmək, mövcud vəziyyəti tədqiq etmək və tənzimləmənin effektivliyini qiymətləndirmək;
- Aparılmış qiymətləndirmə əsasında ölkədə kənd təsərrüfatının dövlət tənzimlənməsinin təkmilləşdirilməsi ilə bağlı konkret təkliflər formalaşdırmaq.

**Tədqiqat metodları**. Tədqiqat işində kənd təsərrüfatı sahəsi üzrə dövlət tənzimlənməsinin nəzəri əsaslarının təhlili, ümumiləşdirmə, analiz-sintez, müqayisə, statistik təhlil və ekonometrik qiymətləndirmə metodlarından istifadə edilmişdir. Qeyd edək ki, hazırda kənd təsərrüfatı sahəsində dövlət tənzimlənməsi ilə bağlı BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) kimi bir sıra beynəlxalq qurumlar tərəfindən mütəmadi olaraq tədqiqatlar aparılır. Dissertasiya işində kənd təsərrüfatı sahəsində dövlət

tənzimlənməsinin effektivliyinin qiymətləndirilməsinə xüsusi yanaşma edilmişdir. İlkin olaraq, sektor üzrə dövlət tənzimlənməsinin miqyası OECD metodologiyası vasitəsilə müəyyən edilmiş, daha sonra isə istehsalçılara göstərilmiş cəmi dəstəyin həcmi ilə kənd təsərrüfatı sahəsində yaradılan əlavə dəyər arasındakı əlaqə ekonometrik üsulla qiymətləndirilmişdir. Bu yolla fermerlərə göstərilən cəmi (həm birbaşa, həm də dolayı) dəstəyin nə dərəcədə effektiv olduğu müəyyən edilişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Tədqiqat işində aşağıdakı əsas müddəalar müdafiəyə çıxarılmışdır:

- ***Azərbaycan Respublikasında kənd təsərrüfatının dövlət tənzimlənməsi sisteminin təkmilləşdirilməsinin zəruriliyi***. İqlim dəyişiklikləri, iqtisadiyyatın qloballaşması və innovasiyaların tətbiqinin zəruriliyi kimi müasir çağırışlar nəzərə alınmaqla kənd təsərrüfatı sektorunun dayanıqlı inkişafının təmin edilməsi mövcud tənzimlənmə sisteminin yenilənməsini tələb edir.
- ***Dövlət dəstəyi mexanizmlərinin effektivliyinin artırılması***. Kənd təsərrüfatının inkişafı daha çox dövlət dəstəyi mexanizmlərindən, o cümlədən subsidiyalardan, vergi güzəştlərindən və kreditlərdən asılıdır. Bu mexanizmlərin təkmilləşdirilməsi innovasiyaların stimullaşdırılmasına, məhsuldarlığın artırılmasına və kənd təsərrüfatının dayanıqlı inkişafına əsaslanmalıdır.
- ***Kənd təsərrüfatı məhsullarının istehsalı üzrə dəyər zəncirlərinin inkişaf etdirilməsi***. Ölkədə kənd təsərrüfatı məhsullarının emalı genişləndirilməli, hektar başına və ya heyvan başına daha çox əlavə dəyər yaradan məhsulların istehsalı təşviq edilməlidir.
- ***Dayanıqlı kənd təsərrüfatı təcrübələrinin həyata keçirilməsi***. Dövlət tənzimlənməsi ekoloji cəhətdən təmiz və dayanıqlı əkinçilik üsullarına keçidi asanlaşdırmalıdır. Bu isə iqlim dəyişikliklərinin təsirlərini yumşaltmağa və kənd təsərrüfatı sektorunun təbii fəlakətlərə davamlılığını artırmağa, eyni zamanda kənd təsərrüfatı məhsullarının keyfiyyətini yaxşılaşdırmağa kömək etməlidir.

**Tədqiqatın elmi yeniliyi**. Tədqiqat işində əldə edilən başlıca elmi yeniliklər aşağıdakılardan ibarətdir:

1. Azərbaycanda mövcud vəziyyətin və tarixi məlumatların təhlili əsasında kənd təsərrüfatının dövlət tənzimlənməsinin effektivliyinə təsir göstərən ən mühüm amillər müəyyən edilmişdir;

2. Aparılmış tədqiqat əsasında Azərbaycanda kənd təsərrüfatı sahəsinin strateji inkişaf hədəfləri nəzərə alınmaqa bu sahədə dövlət tənzimlənməsinin inkişaf prioritetləri müəyyən edilmişdir;

3. Ölkədə kənd təsərrüfatı istehsalçılarının aqro-texniki normalar və bazar fəaliyyəti ilə bağlı bilik və bacarıqlarının artırılması məqsədilə informasiya-məsləhət sisteminin formalaş-dırılması əsaslandırılmışdır;

4. Aparılmış təhlillər əsasında ölkədə kənd təsərrüfatı sahəsində miqyas effektindən istifadənin genişləşdirilməsi, yerli kənd təsərrüfatı məhsulları istehsalçılarının rəqabət qabiliyyətliliklərinin artırılması və ümumilikdə kənd təsərrüfatı sektorunun inkişaf etdirilməsi baxımından fermer kooperativlərinin yaradılması sahəsində dövlət tənzimlənməsi mexanizmlərinin yenilənməsi və xarici ölkələrin ən yaxşı təcrübələrinin tətbiqi şərtləri əsaslandırılmışdır;

5. Beynəlxalq səviyyədə kənd təsərrüfatı sahəsinin dövlət tənzimlənməsinin qiymətləndirilməsi məqsədilə istifadə olunan yanaşmalar və metodologiyaların, habelə Azərbaycanda kənd təsərrüfatı sahəsi üzrə mövcud dövlət tənzimlənməsi alətlərinin qruplaşdırılması aparılmışdır;

6. OECD metodologiyası ilə ekonometrik qiymətləndirmə metodlarının sintezi aparılmış və ölkədə kənd təsərrüfatı sahəsinə göstərilən cəmi dövlət dəstəyinin effektivliyi qiymətləndirilmişdir;

7. Azərbaycanda kənd təsərrüfatı sahəsinin dövlət tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi və səmərəliliyinin genişləndirilməsi istiqamətləri müəyyən edilməklə bu istiqamətlər üzrə konkret təkliflər hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqat işində OECD və ekonometrik metodların sintezi sayəsində kənd təsərrüfatı istehsalçılarına göstərilən cəmi dəstəyin effektivliyinin qiymətləndirilməsi mümkün olmuşdur. Bu metodologiya əsasında aparılmış qiymətləndirmə ölkədə kənd təsərrüfatı məhsullarının istehsalçılarına göstərilən dəstəyin digər ölkələrlə müqayisəsinə və Azərbaycanın bu göstəriciyə görə mövqeyinin müəyyən edilməsinə imkan vermişdir. Aparılmış tədqiqat nəticəsində ölkədə kənd təsərrüfatı sektoru üzrə dövlət tənzimlənməsinin üstünlük və çatışmazlıqları müəyyən olunmuşdur. Bu isə ölkədə kənd təsərrüfatı sahəsinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətlərini müəyyən etməyə imkan vermişdir.

Tədqiqat işində əldə edilmiş nəticələrdən ali təhsil müəssisələrində iqtisadiyyatın dövlət tənzimlənməsi istiqamətlərinin müəyyənləşdirilməsində istifadə etmək olar.

**Aprobasiyası və tətbiqi**. Tədqiqat işinin əsas nəzəri yanaşma, nəticə və təklifləri Ali Attestasiya Komitəsinin tövsiyə etdiyi yerli və xarici jurnallarda, konfrans materiallarında, o cümlədən 6 məqalədə (biri xaricdə olmaqla) və 4 konfrans materialında (biri xaricdə olmaqla) dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Aqrar Tədqiqatlar Mərkəzində yerinə yetirilmişdir.

**Dissertasiya işinin strukturu və həcmi**. Dissertasiya işi girişdən (13000 işarə), üç fəsildən (I fəsil 75278 işarə, II fəsil 82763 işarə, III fəsil 47593 işarə), nəticədən (18000 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısından (140 adda) ibarət olub, ümumi həcmi 160 səhifədir. İşdə 22 cədvəl, 10 qrafik, 7 şəkil, 1 sxem və 1 əlavə vardır. Dissertasiyanın ümumi mətn hissəsi isə 234164 işarə təşkil edir.

# MÜNDƏRİCAT

**Giriş**

**I Fəsil. Kənd təsərrüfatının dövlət tənzimlənməsinin nəzəri-metodoloji əsasları**

1.1. Kənd təsərrüfatının dövlət tənzimlənməsinin nəzəri əsasları
1.2. Kənd təsərrüfatında dövlət tənzimlənməsinin strukturu və alətləri
1.3. Kənd təsərrüfatı sahəsi üzrə dövlət tənzimlənməsinin effektivliyinin qiymətləndirilməsi metodologiyası

**II Fəsil. Azərbaycanda kənd təsərrüfatı sahəsi üzrə dövlət tənzimlənməsinin mövcud vəziyyətinin tədqiqi**

2.1. Kənd təsərrüfatının dövlət tənzimlənməsi sisteminin təşəkkülü
2.2. Kənd təsərrüfatının dövlət tənzimlənməsinin mövcud xüsusiyyətləri
2.3. Kənd təsərrüfatının dövlət tənzimlənməsinin effektivliyinin qiymətləndirilməsi

**III Fəsil. Azərbaycanda kənd təsərrüfatı sahəsi üzrə dövlət tənzimlənməsinin effektivliyinin artırılması istiqamətləri**

3.1. Kənd təsərrüfatına dövlət dəstəyinin effektivliyinin artırılması
3.2. Kənd təsərrüfatı məhsullarının emalının genişləndirilməsi və ixracın diversifikasiyası
3.3. Fermerlərin bilik və bacarıqlarının artırılması yolu ilə kənd təsərrüfatında dayanıqlı inkişafın təmin olunması

**Nəticə**
**İstifadə edilmiş ədəbiyyat siyahısı**
**Əlavələr**

## DİSSERTASİYA İŞİNİN QISA MƏZMUNU

**1. Kənd təsərrüfatının dövlət tənzimlənməsinin nəzəri əsasları.** C. Stiqler iqtisadi tənzimləməni maraqlı qrupların iqtisadi fayda əldə etmək məqsədilə hökumətin müdaxilələrindən istifadə etməsi prosesi kimi müəyyən edirdi[1]. A. Marşal isə rəqabəti təşviq etmək, istismarın qarşısını almaq və ədalətliliyi təmin etmək üçün dövlət tənzimlənməsinin zəruriliyini qəbul edirdi. P.M.Lukiçevə görə, "*Qısamüddədli dövrdə dövlətin iqtisadiyyata müdaxiləsi adətən cari problemlərin həllinə, uzunmüddətli perspektivdə isə firmalar və ev təsərrüfatları üçün "oyun qaydalarını" şüurlu şəkildə dəyişməyə istiqamətlənir*"[2]. Ümumiləşdirmə apararaq, iqtisadiyyatın dövlət tənzimlənməsinə "səlahiyyətli dövlət orqanları və ictimai təşkilatlar tərəfindən mövcud sosial-iqtisadi sistemin stabilləşdirilməsi və dəyişən şəraitə uyğunlaşdırılması məqsədilə həyata keçirilən qanunverici, icraedici və nəzarət xarakterli tədbirlər sistemi" kimi tərif verə bilərik. Müəyyən edilmişdir ki, iqtisadi fəaliyyətin dövlət tərəfindən tənzimləməsi inkişaf etməkdə olan ölkələrdə inkişaf etmiş ölkələrlə müqayisədə daha böyük xüsusi çəkiyə malikdir. Bunun əsas səbəbi inkişaf etməkdə olan ölkələrdə bazar mexanizminin zəif inkişaf etməsi ilə əlaqədar bu ölkələrin zəruri funksiyaları effektiv şəkildə həyata keçirə bilməmələridir[3].

Kənd təsərrüfatı dövlət tərəfindən ən çox tənzimlənən sektorlardan biridir. Bu tənzimlənmənin zəruriliyi ərzaq məhsullarının qiymətlərinin sənaye məhsullarının qiymətlərindən daha aşağı sürətlə artması (qiymət dispariteti), sektorun iqlim dəyişikliklərinə və qiymət risklərinə qarşı çox həssas olması kimi amillərlə əsaslandırıla bilər. Ayrı-ayrı ölkələrin təcrübələrinin təhlili göstərir ki, kənd təsərrüfatı sahəsinin dövlət tənzimlənməsi əsasən ərzaq təhlükəsizliyinin təmin edilməsi, fermerlərin dəstəklənməsi və əhalinin sosial rifahının artırılması məqsədilə həyata keçirilir.

---

[1] Stigler, G.I. The Theory of Economic Regulation / George Stigler // The Bell Journal of Economics and Management Science, - 1971, vol. 2, No. 1. - p. 3-6.
[2] Лукичев, П.М. Государственное регулирование и его эффективность//Известия Санкт-Петербургского государственного аграрного университета. - 2015 № 38. - с.139-144.
[3] Stiglitz, J. Private uses of public interests: Incentives and institutions / Joseph Stiglitz // Journal of Economic Perspectives, - 1998, vol. 12, no. 2. - p. 3-22.

Kənd təsərrüfatı sahəsində dövlət tənzimlənməsi ilə bağlı müvafiq istiqamətləri əhatə edən müfəssəl təsnifat (FAPDA) FAO tərəfindən aparılmışdır. Sxem 1-də FAO-nun bu təsnifatının ümumiləşdirilmiş sxemi təqdim edilmişdir.




**Sexm 1.** FAPDA təsnifatı[4]

FAPDA təsnifatı dövlət tənzimlənməsini istehlakçılar, istehsalçılar və ticarət səviyyələrində nəzərdən keçirir. Qeyd edək ki, əksər ölkələrdə istehsalçılara istiqamətlənmiş tənzimlənmə tədbirləri daha böyük paya malikdir.

Amerika Birləşmiş Ştatları, Avropa İttifaqı ölkələri, Türkiyə və Çinin kənd təsərrüfatı sahəsində dövlət tənzimlənməsi ilə bağlı təcrübələrinin təhlili göstərmişdir ki, bu ölkələr fermerləri bazar dəyişikliklərindən qorumaq və ərzaq təchizatının sabitliyini təmin etmək məqsədilə subsidiyalardan, qiymət dəstəyindən, idxal/ixrac nəzarətindən və kənd infrastrukturuna investisiyalardan istifadə edirlər. Bu sahədə ən böyük paya malik siyasət aləti isə bazarı ən çox təhrif edən birbaşa dəstək tədbirləridir[5]. Bundan əlavə, iqlim dəyişiklikləri və resursların tükənməsi kimi

---

[4] Food and Agriculture Policy Classification, Food and Agriculture Policy Decision Analysis, FAPDA

[5] OECD iLibrary: [Electronic source]. - 23 October, 2022. URL: https://www.oecd-ilibrary.org/search/advancedsearch

qlobal çağırışlar səbəbindən dünya miqyasında kənd təsərrüfatı siyasətlərində dayanıqlılıq məsələləri getdikcə daha çox prioritetləşdirilir.

Kənd təsərrüfatı sahəsində dövlət tənzimləməsi ilə bağlı dünya təcrübəsi öyrənildikdən sonra bu tənzimlənmənin effektivliyinin qiymətləndirilməsi üçün mövcud metodoloji yanaşmalar araşdırılmışdır. Müəyyən edilmişdir ki, belə metodlar şərti olaraq iki qrupa bölünür[6]:

- ***Deskriptiv qiymətləndirmə***. Bu üsulun özünü də iki yerə bölmək olar: a) riyazi və statistik təhlil alətlərindən istifadə etməklə ayrı-ayrı göstəricilər arasındakı əlaqələrin qiymətləndirilməsi, b) məhsulların daxili bazar qiymətləri ilə dünya bazar qiymətləri arasındakı fərqlər əsasında dövlət dəstəyinin miqyasının müəyyən edilməsi (məs. OECD metodologiyası).

- ***Model əsaslı qiymətləndirmə.*** Buraya sadə ekonometrik modellərlə yanaşı, qismi və ümumi tarazlıq modelləri də daxildir. Belə modellər dəyişənlər arasındakı mürəkkəb əlaqələri və asılılıqları qiymətləndirməyə və daha mötəbər nəticələr əldə etməyə imkan verir.

Qeyd edək ki, tədqiqat işində kənd təsərrüfatı sahəsində dövlət tənzimlənməsinin effektivliyinin qiymətləndirilməsi üçün həm deskriptiv, həm də model əsaslı qiymətləndirmədən istifadə edilmişdir.

2. **Azərbaycanda kənd təsərrüfatı sahəsi üzrə dövlət tənzimlənməsinin mövcud vəziyyətinin tədqiqi**. Azərbaycanda kənd təsərrüfatı sahəsinin dövlət tənzimlənməsinin tarixi inkişafı sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) dövrü (1920-1990-cı illər) və müstəqillik qazanıldıqdan sonrakı (1991-ci ildən bu günə) dövrlər üzrə təhlil olunmuşdur. Təhlil nəticəsində müəyyən olunmuşdur ki, sovetlər dövründə kənd təsərrüfatı sektoru mərkəzdən idarə olunduğu üçün istehsal amillərindən effektiv istifadəyə imkan vermişdir. Buna baxmayaraq, ölkənin kənd təsərrüfatının əsas etibarı ilə böyük sovetlər quruluşuna xidmət etməsi, təsərrüfat əlaqələrinin ölkə səviyyəsində yox, regional əsasda bölüşdürülməsi, həmçinin rayonların məhsullar üzrə ixtisaslaşmasının qeyri-düzgün aparılması kənd təsərrüfatının inkişafına maneələr törətmişdir.

Müstəqillik qazanıldıqdan sonrakı dövr isə şərti olaraq üç alt-dövrə bölünmüşdür. ***Kənd təsərrüfatı sahəsinin liberallaşdırılması dövrü*** (1991-2004-cü illər) keçmiş sovet respublikaları ilə iqtisadi əlaqələrin qırılması, pambıq xammalı, şərab, ipək, tərəvəz və başqa kənd təsərrüfatı

---

[6] Qruplaşdırma müəllif tərəfindən aparılmışdır.

məhsulları üzrə satış bazarlarının itirilməsi, həmçinin ölkəyə bir sıra ərzaq məhsullarının idxalının dayanması fonunda yerli kənd təsərrüfatının dirçəldilməsi və özünütəminetmənin yüksəldilməsi səylərini əhatə edir. Bu dövrdə ölkə başçısı Heydər Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi altında həyata keçirilən aqrar islahatlar kənd təsərrüfatı sahəsinin inkişafı üçün zəruri təməl rolunu oynamışdır. ***Yüksək neft gəlirləri dövrü*** (2005-2014-cü illər) neft satışından əldə edilən gəlirlərin bir hissəsinin kənd təsərrüfatı sektorunun inkişafı məqsədilə investisiya edilməsi və bunun müqabilində sektorda intensivləşmə proseslərinin sürətlənməsi ilə səciyyələnir. ***Post-neft dövrü dövrü*** (2015-ci ildən sonrakı dövr) neftin dünya bazar qiymətlərinin aşağı düşməsi nəticəsində ölkənin neft gəlirlərinin azalması, ölkə iqtisadiyyatının şaxələndirilməsinə ehtiyacın yaranması və kənd təsərrüfatının prioritet sektorlardan biri kimi müəyyən olunması ilə səciyyələnə bilər. Ən son dövr isə kənd təsərrüfatı sahəsinin inkişaf etdirilməsi ilə bağlı iqtisadi məsələlərlə yanaşı, ekoloji məsələlərin də aktuallaşması ilə xarakterizə olunur.

Hazırkı dövr üçün Azərbaycanda kənd təsərrüfatının dövlət tənzimlənməsi sistemini şərti olaraq altı əsas istiqamətə bölmək olar: (1) kənd təsərrüfatı məhsullarının istehsalı, saxlanması, daşınması, emalı və satışı vasitələrinə çıxış, (2) kənd təsərrüfatı məhsullarının istehsalı ilə bağlı xidmətlərə çıxış, (3) kənd təsərrüfatı sahəsində elmi fəaliyyətlər, (4) daxili bazarda əlverişli mühitin yaradılması, (5) kənd təsərrüfatı sektorunun inkişafı ilə bağlı beynəlxalq əməkdaşlıq, (6) sektorun fəaliyyəti ilə bağlı normativ-hüquqi tənzimlənmə.

Fermerlərin fəaliyyətlərinə birbaşa təsir göstərməsi və büdcə vəsaitlərindəki payının böyük olması baxımından ölkədə kənd təsərrüfatının dövlət tənzimlənməsinin ən mühüm istiqaməti dövlət dəstəyi tədbirləridir. Fermerlərə göstərilən birbaşa dövlət dəstəyinin həcmi ilə bağlı məlumat aşağıdakı qrafikdə verilmişdir (Qrafik 1).




**Qrafik 1.** 2007-2023-cü illər ərzində Azərbaycanda kənd təsərrüfatına verilən subsidiyaların cəmi məbləği, milyon manat[7]

Qrafikdən göründüyü kimi, ölkədə kənd təsərrüfatı sektoru aktiv şəkildə dəstəklənməkdədir və 2015-ci ildən başlayaraq bu dəstəyin həcmində kəskin artım müşahidə olunur.

Bu dəstəyi kənd təsərrüfatı sektorunun Ümumi Daxili Məhsula (ÜDM) verdiyi töhfə ilə müqayisə etsək (kənd təsərrüfatına yönəlmə indeksi), 2023-cü ildə Azərbaycan üçün bu göstəricinin 47% olduğunu hesablaya bilərik. Bu onu göstərir ki, kənd təsərrüfatı sektoruna onun iqtisadiyyata verdiyi töhfədən daha az vəsait xərclənir. Daha doğrusu, sektor dövlət tərəfindən prioritet sahə kimi elan olunsa da bu, öz əkisini büdcə xərclərində tapmır. Bu isə ərzaq təhlükəsizliyinin təmin olunmasına, kənd yerlərinin inkişafına və yoxsulluğun səviyyəsinə öz mənfi təsirini göstərə bilər. Qeyd edək ki, İnkişaf Etmiş Ölkələrdə kənd təsərrüfatı sahəsinin ÜDM-də payının kiçik olmasına baxmayaraq, bu ölkələr sektoru onun verdiyi töhfə ilə müqayisədə daha çox dəstəkləyirlər. Buradan belə bir nəticə çıxara bilərik ki, kənd təsərrüfatı sektoru təkcə iqtisadi inkişaf potensialına görə dövlət tənzimlənməsinin predmeti kimi çıxış etmir. Sektor üzrə sosial, siyasi və strateji tənzimləmə aspektləri də ciddi paya malikdirlər.

[7] EKTİS (Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi) bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Azərbaycanda kənd təsərrüfatı sahəsində dövlət tənzimlənməsi sisteminin təhlili aşağıdakı əsas istiqamətlər üzrə təkmilləşdirilməyə ehtiyacın olduğunu müəyyən etməyə imkan vermişdir:

- Hazırkı dövr üçün ölkədə kənd təsərrüfatı məhsullarının emalı sahəsində yaradılan əlavə dəyərin ilkin kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində yaradılan əlavə dəyərə nisbəti 0,25-dir ki, bu da İEÖ-lərlə müqayisədə kifayət qədər aşağı göstəricidir.
- Yerli fermerlərin aqro-texniki normalarla bağlı bilik və bacarıqları yetəri səviyyədə deyil. Bu, özünü kiçik ölçülü, aşağı məhsuldarlıqlı və yekcins tərkibli ailə-kəndli təsərrüfatlarının çoxluq təşkil etməsində bilavasitə göstərir. Həmçinin Azərbaycan kənd təsərrüfatı bitkilərinin məhsuldarlığına görə bir çox ölkələrdən geri qalır. Bu fərqlər həmçinin kənd təsərrüfatı heyvanları üzrə də müşahidə olunur.
- Ölkədə kənd təsərrüfatı məhsullarının satışı, saxlanması və daşınması ilə bağlı bazar infrastrukturu yetərincə inkişaf etməmişdir. Kənd təsərrüfatı məhsullarının istehsalından sonrakı mərhələlərin zəif təşkil olunması sektor oyunçularının rəqabət qabiliyyətliliyinin aşağı olmasına gətirib çıxarır.
- Kiçik fermerlər çox vaxt iri tədarükçülərlə birbaşa işləmək üçün lazımi resurslara malik deyillər və nəticədə onlar vasitəçilərdən asılı şəkildə fəaliyyət göstərirlər. Eyni vəziyyət kənd təsərrüfatı məhsullarının ixracı ilə bağlı da müşahidə olunur. Burada da ixrac üzrə ixtisaslaşmış vasitəçilər bazarda tədarükçü inhisarı (monopsoniya) formalaşdırmaqla fermerlərin yüksək gəlir imkanlarını məhdudlaşdırırlar.
- Azərbaycanın kənd təsərrüfatı məhsullarının əksər hissəsi yalnız bir ölkəyə (Rusiya Federasiyasına) ixrac olunur. Avropa isə idxal qiymətlərinin yüksək olması baxımından daha cəlbedici bazardır. Qeyd edilməlidir ki, Azərbaycandan Avropa ölkələrinə az həcmdə olsa da bəzi yerli məhsullar (fındıq ləpəsi, nar şirəsi və s.) ixrac olunur və bu təcrübədən digər sektorların da yararlanması təmin oluna bilər.
- Ölkədə kənd təsərrüfatı məhsullarının istehsalı, satışı, idxalı, ixracı və emalı ilə bağlı bir çox vergi güzəştləri mövcud olsa da bir sıra hallarda dəyər zəncirləri boyu bu güzəştlər sistemli xarakter daşımır və prosesdə qırılmalara gətirib çıxarır.

Tədqiqat işində OECD metodologiyası əsasında 2007-2023-cü illər üzrə İstehsalçılara Dəstəyin faizlə ifadəsi (*Producer Support Estimate,*

%PSE) göstəricisi qiymətləndirilmişdir (Qrafik 2). 2023-cü il üçün %PSE göstəricisinin 37,5% olması onu ifadə edir ki, ölkə üzrə təsərrüfatların cəmi gəlirlərinin 37,5%-i istehsalçıların dəstəklənməsi tədbirləri ilə əlaqədar formalaşmışdır. Həmçinin qrafikdən göründüyü kimi, istehsalçılara göstərilən dəstəyin onların gəlirlərində tutduğu pay ümumən artım trendinə malikdir.




**Qrafik 2.** İstehsalçılara dəstəyin faizlə ifadəsi göstəricisi (%PSE)[8]

OECD tərəfindən aparılmış qiymətləndirmələrin nəticələrinə əsasən iqlim cəhətdən kənd təsərrüfatı fəaliyyəti üçün o qədər də əlverişli olmayan İEÖ-lərdə (İslandiya, Norveç, Yaponiya və s.) kənd təsərrüfatı istehsalçılarına dəstək daha yüksəkdir, Avstraliya, Yeni Zelandiya, Argentina və Rusiya kimi geniş əkin və örüş sahələrinə malik ölkələrdə isə, əksinə, bu göstərici kifayət qədər aşağıdır[9]. Azərbaycan isə bu göstəricinin yüksək olduğu ölkələr sırasındadır.

Tədqiqat işində kənd təsərrüfatında dövlət tənzimlənməsinin effektivliyinin qiymətləndirilməsi üçün PSE göstəricisi ilə kənd təsərrüfatı sahəsində yaradılan əlavə dəyər göstəricisi arasında xətti reqressiya əlaqəsi qiymətləndirilmişdir. Qeyd edək ki, reqressiya təhlili 2007-2021-ci illəri əhatə edir. Zaman sırasına 2022 və 2023-cü illərin məlumatları əlavə edildikdə model adekvat alınmır. Başqa sözlə, 2007-2023-cü illər ərzində dəyişənlər arasında xətti reqressiya əlaqəsinin

---

[8] OECD metodologiyası əsasında müəllif tərəfindən hazırlanmışdır.
[9] OECD: [Electronic resource] https://www.oecd-ilibrary.org/agriculture-and-food/agricultural-policy/indicator-group/english_22d89f8c-en

olmaması ilə bağlı sıfır dərəcəli hipotezi rədd edə bilmirik. Obyektiv səbəblərdən zaman sırası qısa olduğuna görə belə halın baş verməsi anlaşılandır. 2007-2021-ci illər üzrə isə dəyişənlər arasında statistik əhəmiyyətli əlaqə müəyyən edilmişdir.

Reqressiya tənliyinin ümumi forması aşağıdakı kimidir:

$$\Delta va_t = \beta_0 + \beta_1 \Delta pse_t + \varepsilon_t \qquad (1)$$

Burada: $va_t$ – t ilində ölkədə kənd təsərrüfatı sahəsində yaradılmış əlavə dəyəri, $pse_t$ - t ilində kənd təsərrüfatı məhsulları istehsalçılarına göstərilən dəstəyi, $\varepsilon_t$ - xəta payını, $\beta_0$ və, $\beta_1$ - tənliyin əmsallarını, $\Delta$ - birinci tərtib fərqi ifadə edir.

Təhlil STATA proqramında aparılmışdır (Şəkil 1). Tənliyin determinasiya əmsalı 0,33-ə bərabərdir. Bu, o deməkdir ki, kənd təsərrüfatı əlavə dəyərindəki dəyişkənliyin təqribən 33%-i müşahidə olunan dövr ərzində PSE-də baş verən dəyişikliklərlə izah edilə bilər.

| Source | SS | df | MS |
|---|---|---|---|
| Model | 185700.237 | 1 | 185700.237 |
| Residual | 299777.94 | 12 | 24981.495 |
| Total | 485478.177 | 13 | 37344.4752 |

| | | |
|---|---|---|
| Number of obs | = | 14 |
| F(1, 12) | = | 7.43 |
| Prob > F | = | 0.0184 |
| R-squared | = | 0.3825 |
| Adj R-squared | = | 0.3311 |
| Root MSE | = | 158.06 |

| D.va | Coef. | Std. Err. | t | P>\|t\| | [95% Conf. | Interval] |
|---|---|---|---|---|---|---|
| pse | | | | | | |
| D1. | .5318143 | .1950576 | 2.73 | 0.018 | .1068202 | .9568084 |
| _cons | 163.7445 | 53.66471 | 3.05 | 0.010 | 46.81913 | 280.6699 |

**Şəkil 1.** Reqressiya təhlilinin nəticəsi

*Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir*

Sərbəst dəyişənin *t* və *p* qiymətlərinə əsasən deyə bilərik ki, PSE tədqiq olunan dövr ərzində kənd təsərrüfatının əlavə dəyərinə əhəmiyyətli və pozitiv təsir göstərmişdir.

Aparılmış ekonometrik təhlil nəticəsində müəyyən edilmişdir ki, digər dəyişənlərin sabit saxlanması şərtilə istehsalçılara dəstəyin 1 vahid və ya 1 milyon manat artması kənd təsərrüfatında yaradılan əlavə dəyərin təqribən 0,53 vahid və ya 532 min manat artmasına gətirib çıxarır. Bu isə dövlət dəstəyinin effektivliyinin aşağı olmasını ifadə edir.

3. **Azərbaycanda kənd təsərrüfatı sahəsi üzrə dövlət tənzimlənməsinin effektivliyinin artırılması istiqamətləri**. Aparılmış

tədqiqat nəticəsində kənd təsərrüfatı sahəsində dövlət tənzimlənməsinin təkmilləşdirilməsi baxımından daha böyük töhfə verə bilən üç istiqamət müəyyən olunmuşdur. Birinci istiqamət ***dövlət dəstəyinin effektivliyinin artırılmasıdır***. Kənd təsərrüfatı istehsalçılarına verilən birbaşa subsidiyalar kənd təsərrüfatı sektorunun inkişafı baxımından dövlətin qarşıya qoyduğu məqsədlərə nail olunmasına yönəlməlidir. Əgər subsidiyalar bu məqsədlərə xidmət etmirsə, bu, büdcə vəsaitlərindən qeyri-rasional istifadə edilməsinə və bütünlükdə ölkə iqtisadiyyatının rəqabət qabiliyyətliliyinin zəifləməsinə gətirib çıxarar.

Azərbaycan kənd təsərrüfatı sektoru oyunçularını əsaslı şəkildə dəstəkləyən ölkələr sırasındadır. Ancaq aparılmış ekonometrik qiymətləndirmənin nəticələrinə görə bu dəstəyin effektivliyi arzu olunan səviyyədə deyil. Fermerlərə hər il təqribən 230-270 milyon manat həcmində əkin subsidiyası ödənsə də bu subsidiya faktiki olaraq ayrı-ayrı bitkilər üzrə əkin sahələrinin genişləndirilməsinə xidmət edir, daha doğrusu, əkin subsidiyası fermeri məhsuldarlığı yox, əkin sahəsini artırmağa həvəsləndirir. Ölkədə bəzi kənd təsərrüfatı bitkilərinə məhsul subsidiyası verilsə də bu, kiçik paya malikdir. 2023-cü il üçün məhsul subsidiyasının cəmi məbləği 71,9 milyon manat təşkil etmişdir ki, bu da nəzərdən keçirilən dövrdə əkin subsidiyasının məbləğindən təxminən 3,9 dəfə aşağıdır.

Bunu nəzərə alaraq, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını yüksəltməsi və kənd təsərrüfatında intensiv inkişafa şərait yaratması baxımından cəmi subsidiya büdcəsində məhsul subsidiyasının payının artırılması məqsədəuyğundur.

Hazırkı dövr üçün ölkədə, demək olar ki, bütün kənd təsərrüfatı məhsulları dəstəklənir. Nəticədə, dövlət dəstəyinə həqiqətən ehtiyacı olan sahələrlə yanaşı, kifayət qədər gəlir potensialına malik olan sahələr də dəstəklənmiş olur. Bu zaman həmin bitkilərin becərilməsinə görə ödənilən vəsait bu vəsaitin ona həqiqətən ehtiyacın olduğu sahədə yaradacağı dəyərdən daha az dəyər yaradır. Daha doğrusu, dövlət dəstəyinin effektivliyi aşağı düşür. Bu baxımdan xərclərdə payı az olan əkin subsidiyalarının ümumiyyətlə ləğv edilməsi yanaşması nəzərdən keçirilə bilər. Əkin subsidiyasının ayrı-ayrı kənd təsərrüfatı bitkilərinin becərilməsi üzrə xərclərdə tutduğu payla bağlı məlumat Cədvəl 1-də təqdim edilmişdir.

**Cədvəl 1.** Subsidiyanın xərclərdə payı, 2023-cü il

| Bitkilər | Xərc, manat/ha | Subsidiya, manat/ha | Subsidiyanın xərclərdə payı |
|---|---|---|---|
| Dənli bitkilər | 568.1 | 214.3 | 38% |
| Yaşıl çay yarpağı | 1284.4 | 472.4 | 37% |
| Meyvələr | 4472.3 | 491.2 | 11% |
| Çəltik | 3949.8 | 280.3 | 7% |
| Bostan məhsulları | 3398.9 | 218.9 | 6% |
| Tərəvəz | 4621.6 | 229.5 | 5% |
| Kartof | 4913 | 251.0 | 5% |
| Üzüm | 10567.3 | 336.7 | 3% |

*Mənbə: DSK və KTN-nin məlumatları əsasında hazırlanmışdır.*

Cədvəldən göründüyü kimi, üzüm, kartof, bir çox meyvə və tərəvəzlər üçün birbaşa subsidiyanın xərclərdə payı kifayət qədər kiçikdir. Bu bitkilərin istehsalçılarına göstərilən dəstəyin aşağı gəlirli bitkilərin, məsələn, dənli bitkilərin, o cümlədən buğdanın istehsalına istiqamətlənməsi ölkənin bu məhsullar üzrə özünütəminetmə səviyyəsini yüksəltməyə imkan verə bilər.

Dövlət dəstəyinin effektivliyinin artırılması ilə bağlı tövsiyə olunan növbəti mexanizm ərzaqlıq buğda sektorunda mövcud olan qeyri-müəyyənliyin həlli ilə bağlıdır. Belə ki, ərzaqlıq buğda sektoru üzrə dövlət dəstəyi ilə bağlı hazırda tətbiq olunan mexanizmdə müəyyən uyğunsuzluqlar müşahidə olunur. Ölkəyə ərzaqlıq buğda idxalı rüsumdan azad edilməklə yanaşı, yerli buğda istehsalına da dəstək göstərilir. Başqa sözlə, ucuz idxal buğdası yerli buğda istehsalçıları üçün əlverişsiz bazar şəraiti formalaşdırır və buna cavab olaraq dövlət buğda istehsalını aktiv şəkildə subsidiyalaşdırır. Beləliklə, buğda bazarında qeyri-müəyyənlik yaranır. Bu qeyri-müəyyənliyin həlli üçün ölkədə buğda istehsalı ilə bağlı konkret hədəflər müəyyən olunmalıdır. Bu istiqamət üzrə təklif olunan mexanizm buğda idxalına müəyyən rüsumun tətbiq edilməsi və ərzaqlıq buğdanın fermerlərdən dövlət alışının təşkil edilməsidir. Bu tənzimləmə buğdanın daxili qiymətini yüksəldəcəkdir. Bunun sayəsində yerli istehsalçılar həm buğda istehsalına, həm də məhsuldarlığın artırılmasına maraqlı olacaqlar.

Bu istiqamət üzrə tövsiyə olunan sonuncu mexanizm Azərbaycanda kənd təsərrüfatında sıfır faizli vergitutmanın tətbiqidir. Hazırda yerli fermerlər, demək olar ki, bütün vergilərdən azaddırlar (torpaq vergisi istisna olmaqla). Lakin bu vergi azadolması dövlətin fermerlərin istehsal

həcmini, xərclərini və ümumi iqtisadi göstəricilərini izləməkdə çətinliklər yaradır. Fermerlər üçün sıfır faizli vergi dərəcəsinin tətbiqi onların mövcud vergidən azadolma statusunu qoruyaraq, onları vergi sisteminə inteqrasiya etməyi nəzərdə tutur. Bu siyasət çərçivəsində fermerlər vergi orqanlarında qeydiyyatdan keçməli və dövri olaraq istehsal həcmləri, xərclər, satışlar və digər iqtisadi göstəricilər barədə hesabat verməli olacaqlar. Fermerlər vergi ödəmək məcburiyyətində olmasalar da, onların qeydiyyatı dövlətə vacib maliyyə məlumatlarını toplamaq üçün rəsmi mexanizm yaradacaqdır.

Ölkədə dövlət tənzimlənməsinin effektivliyinin artırılması baxımından təklif olunan ikinci istiqamət ***kənd təsərrüfatı məhsullarının emalının genişləndirilməsi və ixracın diversifikasiyasıdır***. Azərbaycanın kənd təsərrüfatı sektorunun emal potensialı yüksəkdir. Kənd təsərrüfatı məhsulları üzrə dəyər zəncirlərinin inkişaf etdirilməsi əlavə dəyər yaradan məhsulların istehsalını genişləndirmək, daxili bazarın tələbatını ödəmək, ixrac imkanlarını artırmaq, həmçinin məşğulluğun təmin olunmasına töhfə vermək baxımından strateji əhəmiyyət daşıyır. Bu istiqamətdə bir sıra təkmilləşdirmə mexanizmlərinin tətbiqi, dövlət tənzimlənməsi tədbirlərinin görülməsi və institusional dəyişikliklərin həyata keçirilməsi vacibdir.

Azərbaycan bir çox kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün əlverişli iqlim xüsusiyyətlərinə malik olsa da həm torpaq ehtiyatlarının məhdud olması, həm də su ilə təminatın qənaətbəxş səviyyədə olmaması kənd təsərrüfatına yararlı torpaqlardan daha səmərəli istifadəni tələb edir. Bu baxımdan, yerli fermerlər hektar başına və heyvan başına daha çox gəlir gətirən məhsulların istehsalına çalışmalıdırlar. Ölkədə emal potensialı ən yüksək olan məhsullara meyvə-tərəvəz, pambıq, barama və südü aid etmək olar.

Qeyd edək ki, hazırkı subsidiya sistemi bir sıra kənd təsərrüfatı məhsullarının (pambıq, şəkər çuğunduuru, tütün və s.) emal həcminin artırılmasına imkan versə də bu emalın həcmi və dərinliyi arzu olunan səviyyədə deyil. Məsələn, pambıq emalı mahlıc və iplik səviyyəsinə qədər davam edir, daha yüksək əlavə dəyər potensialına malik pambıq tərkibli geyimlərin istehsalı isə demək olar ki, həyata keçirilmir. Şəkər istehsalı isə ixrac fəaliyyətində xam şəkər və saxaroza səviyyəsinə qədər davam edir. Hazır qidaların isə ixracda xüsusi çəkisi çox kiçikdir. Buna

görə də ölkə həm trikotaj, həm də şəkər tərkibli məhsullarla daxili tələbatı əsasən idxal hesabına təmin edir. Qeyd edək ki, təkcə 2023-cü ildə ölkəyə 300 milyon ABŞ dollarından çox məbləğdə trikotaj məhsulları (parça və geyim) və 52 milyon ABŞ dolları məbləğində şəkərdən hazırlanan qənnadı məmulatları idxal olunmuşdur[10].

Azərbaycanda kənd təsərrüfatı məhsullarının emalının genişləndirilməsi baxımından İtaliya və Türkiyənin təcrübəsindən faydalanmaq olar. İtaliyada məhsulların böyük hissəsi kiçik təsərrüfatlarda istehsal edilsə də, yüksək keyfiyyətli şərab və zeytun yağı kimi ixrac yönümlü məhsulların istehsalına hədəflənmiş emal müəssisələri də inkişaf etmişdir. Bu sahədə toplanmış təcrübədən Azərbaycanda zeytun, nar, fındıq və digər meyvə-tərəvəz məhsullarının emalında istifadə edilə bilər. Müasir texnologiyaların tətbiqi, aqrar startapların inkişafı, qida təhlükəsizliyi standartlarının gücləndirilməsi və ixrac strategiyalarının hazırlanmasında isə Türkiyə modelindən istifadə oluna bilər.

Ölkədə kənd təsərrüfatı məhsullarının emalının genişləndirilməsi baxımından dövlət-özəl əməkdaşlığının qurulması da məqsədəuyğundur. Bu məqsədlə Avropa İttifaqının (Aİ) təcrübəsindən istifadə etmək olar. Aİ-də üzv ölkələrin hökumətlərini kənd təsərrüfatı məhsullarının emalı məqsədilə özəl şirkətlərlə əməkdaşlıq etməyə təşviq etmək üçün bir sıra siyasət tədbirləri həyata keçirilir. Nümunə olaraq, ***Horizon Europe*** proqramı Aİ-nin tədqiqat və innovasiya proqramıdır. Bu proqram kənd təsərrüfatı və qida emalı da daxil olmaqla müxtəlif sektorlardakı layihələri maliyyələşdirir. Bu istiqamət üzrə “Fermadan Çəngələ Strategiyası” alətindən daha çox istifadə olunur. Bu alət qida sistemlərini ədalətli, sağlam və ekoloji cəhətdən təmiz etmək məqsədini daşıyır. Qeyd edilən təcrübələrdən istifadə etməklə Azərbaycanda da fermerlərin dövlətlə effektiv əməkdaşlığını qurmaq olar. Hazırkı dövr üçün ölkədə fermer təsərrüfatlarının əksəriyyətinin kiçik ölçülü olması və emal üçün zəruri investisya xərclərini çəkə bilməməsi bu sahədə ilkin olaraq fermer birliklərinin yaradılması, daha sonra isə bu birliklərlə dövlət arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulması nəzərdən keçirilə bilər.

Digər bir məsələ Azərbaycanda əksər kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun kifayət qədər inkişaf etməməsi ilə bağlıdır.

---

[10] Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi

Ölkədə anbar infrastrukturunun kifayət qədər inkişaf etməməsi ərzaq itkisinə, aşağı gəlirliliyə və məhdud bazar fəaliyyətinə gətirib çıxarır. Kənd təsərrüfatı məhsullarının satışı ilə bağlı problemlər isə kəskin qiymət tərəddüdlərinə və qeyri-əlverişli bazar situasiyalarının yaranmasına səbəb olur. Bu problemləri aradan qaldırmaq üçün Azərbaycanda kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunu gücləndirmək tələb olunur. Bu məqsədlə soyuq anbar infrastrukturunun genişləndirilməsi üzrə investisiyaların artırılması nəzərdən keçirilə bilər. Bu problemi həll etmək üçün dövlət soyuducu anbarların yaradılmasına stimullar tətbiq etməlidir. Bu, dövlət-özəl tərəfdaşlığı çərçivəsində həyata keçirilə bilər və dövlət bu infrastrukturun inkişaf etdirilməsi üçün özəl sektora vergi güzəştləri, qrantlar və ya aşağı faizli kreditlər təqdim edə bilər. Eyni zamanda ölkədə fermer təsərrüfatlarının əsasən kiçik ölçülü olduqlarını nəzərə almaqla, modul tipli, həmçinin alternativ enerji mənbələrindən (məsələn, günəş enerjisi) qidalanan soyuducu anbarların güzəştli şərtlərlə fermerlərə təqdim edilməsi də nəzərdən keçirilə bilər.

Bu istiqamətdə növbəti təkmilləşdirmə mexanizmi topdansatış mərkəzlərinin və ya hubların yaradılmasına dəstək göstərilməsidir. Hazırkı dövrdə mövcud qeyri-əlverişli bazar situasiyanı tənzimləmək və rəqabəti artırmaq üçün Azərbaycanın müxtəlif bölgələrində bir neçə topdansatış mərkəzinin və ya hubının yaradılması təklif olunur. Bu mərkəzlər fermerlər, ticarətçilər və tədarükçülər arasında şəffaf və rəqabətli ticarəti təmin edən regional bazarlar rolunu oynamalı, həmçinin, ixracın təşviqi üçün aqreqasiya nöqtəsi kimi fəaliyyət göstərərək kiçik və orta fermerlərin ixrac imkanlarını genişləndirməlidir.

Kənd təsərrüfatı məhsullarının ixrac bazarlarının diversifikasiyası da diqqət mərkəzində saxlanmalıdır. Azərbaycanın kənd təsərrüfatı ixracı əsasən Rusiya bazarına yönəlmişdir. Qeyd edək ki, bu bazar ticarət tənzimləmələri baxımından dəyişkən, həm də Aİ bazarı ilə müqayisədə ucuz bazardır. Bir bazardan asılılıq ölkənin kənd təsərrüfatı məhsulları ixracının inkişaf potensialını məhdudlaşdırmaqla yanaşı, sektoru iqtisadi və siyasi risklərə qarşı da həssaslaşdırır.

Rusiyaya alternativ olaraq Aİ bazarı nəzərdən keçirilə bilər. Bu bazara çıxış baxımdan ən mühüm məsələrdən biri fermerlərin müvafiq sertifikatlarla (məs. GlobalGAP, HACCP, ISO 22000 və s.) təchiz

olunmalarıdır. Bu sertifikatların fermerlər üçün əlçatan olması məqsədilə xüsusi təşviq siyasətinin işlənib hazırlanması təklif olunur.

Ölkədə kənd təsərrüfatının dövlət tərəfindən tənzimlənməsinin təkmilləşdirilməsi üzrə təklif olunan sonuncu istiqamət ***fermerlərin bilik və bacarıqlarının artırılması yolu ilə kənd təsərrüfatında dayanıqlı inkişafın təmin olunmasıdır***. Dayanıqlı inkişaf hazırkı dövr üçün qlobal səviyyədə kənd təsərrüfatı qarşısında duran ən mühüm problemlərdən biridir. Dayanıqlı inkişaf ilk növbədə təbii resurslardan (torpaq, su, hava və s.) effektiv və qənaətlə istifadəni ehtiva edir. Kənd təsərrüfatı isə torpaq və su resurslarından ən çox istifadə edən, habelə atmosferə buraxılan istixana qazlarının əsas mənbələrindən biri kimi çıxış edən sektordur. Buna görə də kənd təsərrüfatı sektorunun dayanıqlılığı ətraf mühitin, o cümlədən təbii resursların qorunması baxımından olduqca əhəmiyyətlidir.

Tədqiqat işində kənd təsərrüfatının dayanıqlı inkişafı məsələsinə sektorun əsas oyunçuları olan fermerlərin bilik və bacarıqlarının artırılması nöqteyi-nəzərindən baxılmışdır. Aparılmış tədqiqat nəticəsində müəyyən edilmişdir ki, ölkədə fermerlərin aqro-texniki tədbirlərin həyata keçirilməsi ilə bağlı bilik və bacarıqları ümumiyyətlə aşağı səviyyədədir və bu, onların gəlirlərini məhdudlaşdırmaqla yanaşı, ətraf mühitə də öz mənfi təsirlərini göstərir.

Fermerlərin bilik və bacarıqlarının artırılmasının ən effektiv yollarından biri keyfiyyətli kənd təsərrüfatı informasiyası və məsləhət xidmətlərinin əlçatanlığının təmin edilməsidir. Bu sahədə Aİ-nin təcrübəsi maraqlıdır. Təklif olunan mexanizm Aİ-nin Kənd Təsərrüfatı Bilik və İnnovasiya Sisteminə (AKIS)[11] analoji olaraq kənd təsərrüfatı məhsullarının istehsalı, daşınması, satışı, saxlanması, idxalı-ixracı, emalı, marketinqi və istehlakı ilə bağlı geniş-tərkibli informasiyanın bir arada toplanmasına imkan verən aqro-informasiya portalının yaradılmasıdır. Bu portal sektorla bağlı biliklərin bir mərkəzdə toplanması ilə yanaşı, istifadəçilər arasında interaktiv əlaqələrə də imkan verməli, fermerlər, tədqiqatçılar və digər bazar oyunçuları tərəfindən ünvanlanmış sualların ani şəkildə cavablandırılmasına, həmçinin süni intellekt, maşın

[11] Agricultural Knowledge and Innovation Systems (AKIS): [Electronic resource] / European Comission, - 2024. URL: https://ec.europa.eu/eip/agriculture/sites/default/files/eip-agri_agricultural_knowledge_and_innovation_systems_akis_2021_en_web.pdf

öyrənilməsi, GİS texnologiyaları kimi müasir imkanlardan istifadə edilməsinə də şərait yaratmalıdır.

Fermerlərin bilik və bacarıqlarının artırılması ilə bağlı ən mühüm məsələlərdən biri də kənd təsərrüfatında kooperasiya əlaqələrinin təşviqidir. Azərbaycanda əksər təsərrüfatların kiçik ölçülü olması miqyas effektindən istifadəni məhdudlaşdırır ki, bu da məhsuldarlığın və rəqabətqabiliyyətliliyin azalmasına gətirib çıxarır. Qeyd edək ki, aparılmış çoxsaylı sorğulardan məlum olur ki, ölkədə bir çox fermer kooperativlərə qoşulmaqda maraqlı deyillər. Bu isə ilkin olaraq fermerlərin kooperativlərin faydalarını anlamamaları, eyni zamanda kooperativləşmə ilə bağlı qanunvericilik sisteminin zəifliyi ilə əlaqədardır. Hazırda bu sahədə dövlət tərəfindən görülən dəstək tədbirlərinin miqyasının artırılmasına və alternativ təşviq mexanizmlərinin işlənib hazırlanmasına ehtiyac vardır.

İtaliya və Danimarka kimi ölkələrdə hökumət təşviqləri kənd təsərrüfatı kooperativlərinin yaradılmasında mühüm rol oynamışdır. Məsələn, İtaliyada kooperativlər vergi güzəştləri, subsidiyalar və texniki yardımlar alırlar ki, bu da onların böyüməsinə və üzvlərinə daha yaxşı xidmətlər göstərmələrinə kömək edir[12]. Azərbaycanda da maliyyə təşviqləri təmin edilməklə kooperativləşmə prosesi genişləndirilə bilər. Bu təşviqlərə vergi güzəştləri, güzəştli kreditlər və müştərək avadanlıqların, məsələn, suvarma sistemlərinin və ya kənd təsərrüfatı texnikasının alınması üçün qrantlar daxil ola bilər.

Fermerlərin bilik və bacarıqlarının artırılması baxımından sonuncu istiqamət onların ekoloji dayanıqlılıqla bağlı maarifləndirilməsidir. Azərbaycanda fermerlərin su və torpaq resurslarından düzgün istifadə etməməsi, o cümlədən ənənəvi suvarma üsullarından istifadənin üstünlük təşkil etməsi, həmçinin gübrə və pestisidlərdən yanlış istifadənin geniş yayılması torpaqların deqradasiyasına gətirib çıxarır və ətraf mühitə zərər verir. Ekoloji dayanıqlılıq fermerləri onların fəaliyyətlərinin ətraf mühitə təsiri barədə məlumatlandırmaq və dayanıqlı metodların tətbiqinin genişləndirilməsini təşviq etmək vasitəsilə təmin edilə bilər.

---

[12] Bono, P. Support for Farmers' Cooperatives; Country Report Italy: [Electronic resource] / Wageningen: Wageningen UR, - 2012, - p. 66. URL: https://edepot.wur.nl/244801

Azərbaycanda fermerlərə müasir suvarma sistemlərindən istifadə üzrə subsidiyalar təklif edilir, lakin fermerlərin bu təşviqə marağı azdır. Bunun səbəbi ilkin olaraq belə sistemlərin müəyyən investisiya xərcləri tələb etməsi, həmçinin fermerlərin bu sistemlərin faydalarını hələ ki, tam şəkildə dərk etməmələridir. Bu problemin həlli üçün dövlət tərəfindən tətbiq olunan təşviq tədbirlərinin daha da genişləndirilməsi ilə yanaşı, məsələyə inzibati tənzimləmə predmeti kimi baxılması da nəzərdən keçirilə bilər.

Yekun olaraq, dayanıqlı kənd təsərrüfatı təcrübələrinin təşviqi baxımından ölkədə Qlobal Əhəmiyyətli Aqrar İrs Sistemlərinin (Globally Important Agricultural Heritage Systems, GİAHS) müəyyən edilməsi ilə bağlı fəaliyyətlərin genişləndirilməsi tövsiyə olunur. Qeyd edək ki, hazırda ölkədə Milli Əhəmiyyətli Aqrar İrs Sistemlərinin (Natioanlly Important Agricultural Heritage Systems, NİAHS) müəyyən edilməsi ilə bağlı müəyyən işlər görülsə də bu fəaliyyətin sürətləndirilməsi və dövlətin təşviq proqramlarında yer alması məqsədəuyğun olardı.

**Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər dərc olunmuş aşağıdakı elmi əsərlərdə əks olunmuşdur:**

1. P.F.Əliyev, "Azərbaycan Respublikasında kənd təsərrüfatı və ərzaq məhsullarının ixracının dövlət tənzimlənməsinin nəticələrinin qiymətləndirilməsi" / Kənd Təsərrüfatının İqtisadiyyatı elmi-praktik jurnalı // -Bakı, 2021, № 1(35), s. 63-72
2. P.F.Əliyev, "Azərbaycan Respublikasında ərzaq və kənd təsərrüfatı siyasətinin MAFAP metodologiyası ilə monitorinqi və qiymətləndirilməsi" / Kənd Təsərrüfatının İqtisadiyyatı elmi-praktik jurnalı // -Bakı, 2021, № 2(36), s. 9-18
3. F.F.Fikrətzadə, P.F.Əliyev, "Azərbaycan Respublikasında suvarma suyu üzrə tənzimləmə sisteminin təkmilləşdirilməsi istiqamətləri / Kənd Təsərrüfatının İqtisadiyyatı elmi-praktik jurnalı // -Bakı, 2022, № 1(39), s. 9-24
4. F.F.Fikrətzadə, P.F.Əliyev, "Azərbaycan Respublikasında aqrar sahənin dayanıqlı inkişaf prinsipləri baxımından tənzimlənməsi" / Kənd Təsərrüfatının İqtisadiyyatı elmi-praktik jurnalı // -Bakı, 2022, № 3(41), s.9-32
5. P.F.Əliyev, "Azərbaycanda yerli heyvandarlıq təsərrüfatlarının rəqabət qabiliyyətliliyinin yüksəldilməsi məqsədilə yem idxalının vergi

və rüsumlardan azad edilməsinin effektivliyinin qiymətləndirilməsi / Azərbaycan Dövlət İqtisad Universitetinin elmi xəbərləri // -Bakı, 2022, № 9(9), s. 111-120

6. П.Ф.Алиев, "Оценка аграрной политики в Азербайджане по методологии ОЭСР (Организация Экономического Сотрудничества и Развития)" / Экономика и редпринимательство // № 16(6), s. 511-515

7. P.F.Aliyev, "State regulation on the management of natural resources in the field of agriculture in Azerbaijan" / International Scientific-Practical Conference on "Economic growth in the Conditions of globalization" // - Chisinau, 2022, pp. 429-436

8. P.F.Əliyev, "Azərbaycanda kənd təsərrüfatı məhsullarının emal potensialının artırılması sahəsində dövlət tənzimlənməsinin təkmilləşdirilməsi" / Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının aktual problemləri respublika elmi konfransı" / - Bakı, 2022, s. 378-382

9. P.F.Əliyev, "Azərbaycanda regionların sosial-iqtisadi inkişafının təmin edilməsində aqrar sahənin dövlət tənzimlənməsinin rolu və istiqamətləri" / Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "İqtisadi İnkişafda Qlobal Çağırışlar və Perspektivlər" adlı Respublika elmi konfransı // - Sumqayıt, 2022, s. 227-230

10. P.F.Əliyev, "Azərbaycanda aqrar sahəyə dövlət dəstəyinin effektivliyinin ekonometrik qiymətləndirilməsi" / Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında "Sosial-iqtisadi və tarixi-mədəni əlaqələrin strateji prioritetləri" mövzuzunda keçirilən I Beynəlxalq Sosial Elmlər Konfrans // - Bakı, 2022, s. 150-153

Dissertasiyanın müdafiəsi 26 fevral 2025-ci il tarixində saat 15:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində fəaliyyət göstərən ED 2.10 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın Azərbaycan və İngilis dillərində elektron versiyaları Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında (www.unec.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 24 yanvar 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 15.01.2025
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (40574 işarə)
Tiraj 100.

*“AA – Poliqraf” istehsalat*-kommersiya birliyində
*hazır* diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.

*Əlaqə üçün: capevi@internet.ru Tel.: +994552012809*